**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

**№ 165 (2013) 9 noyabr 2019-cu il**

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR

# XANIMANA ƏLİBƏYLİNİN ŞEİRLƏRİNDƏ HEYVAN OBRAZLARI

**Xanımana Əlibəyli uşaqlar üçün müxtəlif mövzu və ideyaları özündə ehtiva edən şeirlər yazan şairlərimizdəndir. Onun yaradıcılığında uşaqlara aid hər mövzuda şeirə rast gəlmək olar: Vətən sevgisi, anaya məhəbbət, yurd həsrəti, uşaqlarda zəhmətə, əməyə məhəbbət, dostluq, doğruluq kimi müsbət keyfiyyətlərin aşılanması, təbiətə vurğunluq, heyvanlara qayğı ilə yanaşmaq və s. Şairin poeziyasının başlıca məziyyəti ondan ibarətdir ki, o heç bir şeirində uşaqlara quru, sxematik şəkildə nəsihət vermir, onları müxtəlif situasiylarla qarşılaşdıraraq nəyin doğru, nəyin yanlış olmasını seçim etməyi uşaqların öz öhdəliyinə buraxır.**

Şairin yaradıcılığı ədəbiyyat aləmində həmişə diqqət mərkəzində olmuşdur. Bəkir Nəbiyev "Uşaq ədəbiyyatımızın xanım anası" adlı məqaləsində yazır: "Xanımananın əsərlərindəki axıcılıq, uşaq aləminə uyarlıq da qətiyyən asan başa gəlmirdi. Yaradıcı sənətlarlar adətən sevib seçdiyi mövzunu cana gətirmək, onu öz təbii yatağına salmaq, obrazların hər birinə sözdən uyarlı libaslar biçib geyindirmək, onları canlandırmaq üçün böyük axtarışlar aparır, axtardığını tapmayınca rahatlıq nə olduğunu bilmirlər. Bizim bir oxucu kimi bəyəndiyimiz, sevdiyimiz, bəzən hətta aludə olduğumuz cazibədarlıq, rəvanlıq, ahəngdarlıq da şeirdə məhz bu yolla yaranır, ona görə də oxuyanları və dinləyənləri təsirləndirir, razı salır-Xanımananın ən yaxşı əsərlərində olduğu kimi". "Azərbaycan uşaq poeziyasının çoxsaylı qələm sahibləri içərisində X.Əlibəyli bir cəhəti ilə seçilir. O, bütün ömrünü yalnız uşaq poeziyasına həsr etmiş, ömrü boyu gələcək nəsil üçün gözəl süjetlər, hikmətli əhvəlatlar, axıcı qafiyələr, yeni-yeni, təzə-tər obrazlı ifadələr haqqında düşünmüş, hətta dram əsərlərini də şeirlə (nəzmlə) yaratmış, hər bir monoloq və dialoqu poetik səviyyəyə qaldıra bilmişdir"

"Hacıleylək" şeirində quşun təsvirini verən müəllif həm də işğal olunmuş torpaqlarımızdan olan Şuşanın gözəl təbiət mənzərəsini yaradır:

**Dağlar başında Şuşa,**
**Yaşıl donunu açar.**
**Atlaz donlu o quşa .**

Şeirin lirik qəhrəmanı quşa məhəbbətlə, qayğı ilə yanaşır, onun üçün torpağa dən səpir, gül əkir. Bu quş üçün darıxdığını, onun yolunu səbirsizliklə gözlədiyini etiraf edir:

**Leyləyim, pərvaz elə,**
**Axtar məni dünyada.**
**Əynində bir təzə don,**
**Uç gəl qaçqınlı yurda.**

Həcmcə kiçik olan bu şeirdə müəllif həm Hacıleyləyin gözəlliyini təsvir etmiş, həm də Şuşanın işğalından sonra oradakı ağır qaçqınlıq yaşayış şəraitini oxucuya çatdırmağa nail olur.

Ümumiyyətlə, şairin yaradıcılığında bu şeirlər sayca üstünlük təşkil edir.



Xanımana Əlibəyli yaradıcılığında müxtəlif mövzulara toxunmuş, uşaqların anlayacağı sadə dillə onlara həyatın yaxşı və pis üzünü, xeyirxahlığı, səmimiliyi, sadəliyi təlqin etmiş, bununla yanaşı, insanlarda olan lovğalıq, təkəbbürlük, kin-küdurət kimi mənfi keyfiyyətlərdən uzaq durmağa səsləmişdir.

Şairin yaradıcılığında heyvan obrazları üstünlük təşkil edir. Şair bu üsulla həm uşaqların psixologiyasına yaxından bələd olduğundan onların qəlbinə asanlıqla yol tapmağa çalışır, həm də onları tərbiyələndirməyə nail olur.

"Qarğa" şeirində qarğanın "qarr...qarr...qarr!" deməsini onun qarı sevməsi, səsləməsi, qartopu oynamağa həvəsli olması ilə əlaqələndirir və bu üsulla uşaqlarda qarğalara qarşı sevgi, doğmalıq hissi aşılayır, bu quşla onlar arasında müəyyən bağların yaranmasına vəsilə olur.

Xanımana Əlibəylinin şeirləri içərisində təmsillər üstünlük təşkil edir. O, təmsilin ədəbiyyatda oynadığı roldan istifadə edərək, təmsil janrında əsərlər yaradaraq lovğalığı, xudpəsəndliyi, təkəbbürlüyü tənqid edir. "Qartal və tülkü" təmsili beləl追ərindəndir. Qartalı görən tülkü ona acıq vermək, qəzəbləndirmək üçün dil göstərir. Bundan hiddətlənən qartal tülkünü nifrətlə caynağına alaraq, uzaq bir yerdə çölün düzünə atır.

"Qarışqa" şeirində müəllif başladığı işi yarıda qoymamağı, çətinliklə olsa beləonu axıra qədər tamamlamağı aşılayır.Bu fikir məhz qarışqa və ağcaqanadın dialoqunda ifadə olunur.

Xanımana Əlibəylinin bir çox şeirlərində "günəş" mövzusu aparıcı yer tutur. Müəllif şeirlərinin birində balaca qəhrəmanının dilindən "günəş olaram mən də" deməklə günəş kimi uca, hərarətli, işıqlı olmağı, ətrafı öz gözəlliyi ilə rövnəqləndirməyi arzulayır, günəşə möhtərəm qüvvə kimi baxır. "Məni günəşə at" şeirində də əsas obrazlar fil, milçək, sərçədir. Fili milçəkdən xilas edən sərçə yaxşılığı qarşılığında fildən onu xortumunda günəşə atıb tutmasını xahiş edir.

"Hacıleylək əfsanəsi"ndə müəllif hacıleyləyin bir ayaqüstə durması haqqında əfsanədən bəhs edir, bu üsulla oxuculara maraqlı məlumat ötürür.

"Söhbət qızışdı" şeiri hamımıza uşaqlıqdan məlum olan "Durna və qazın" nağılının süjeti əsasında qurulub. Lakin müəllif tamamilə başqa mövzunu hədəf seçib: ördəyi torta qonaq çağıran qaz qəşəng geyinir, sevinci halda yola düşür. Yolda köhnə dostuna rast gəlir, onlar xeyli söhbətləşirlər.

Fikrimizcə, burda müəllif başqasına verilən vədin yerinə yetirilməsinin vacib olduğunu vurğulamaq istəmişdir.Dostunun yolunu gözləyən qaz sarsılır:

**Hər tərəfi qar aldı,**
**Göyün üzü qar aldı.**
**Qazın gözünün kökü,**
**Gözləməkdən saraldı.**

Xanımana Əlibəylinin şeirləri içərisində maarifləndirici şeirlər çoxdur.

Onun "Göstər ağlını" şeirində tovuzquşu, "Sağ ol dələ"də dovşan və dələ, "Ürəyimə yatmayır" şeirində kirpi, "Sarı dəvə" şeirində dəvə və s. şeirlərində müxtəlif heyvanların obrazlarını yaratmışdı.

Xanımana Əlibəyli bu şeirlərində təqdim etdiyi süjet xətti vasitəsilə heyvanlara aid xüsusiyyətləri təsvir etməklə uşaqlara hər bir heyvana xas cəhətləri öyrətməyə çalışır. Məsələn, "Gümüştoyuq" şeirini oxuyan uşaq yumurtanın toyuqdan əldə edildiyini öyrənir.

"Bal arısı" şeirində müəllif həm arının zahiri görünüşünü, həm zəhmətsevərliyini, həm də bal yetirdiyini uşaqlara çatdırır:

**Altında əlvan çiçək,**
**Bu dayanan arııdır.**
**Yetirdiyi balı tək,**
**Bədəni sapsarıdır.**

Qeyd etdiyimiz motiv şairin əksəriyyət şeirlərində mövcuddur.

"Qızıl inək" şeirində inəyin süd yetirdiyini, "Çanaqlı bağa" şeirində tısbağanın asta, yerişini, daşa bənzər görünüşünü, "Şən cırcırama" şeirində cırcıramanın şən-şən oxumasını, mahnıları ilə ətrafı rövnəqləndirməsini, "Maral" şeirində maralın budağa bənzər buynuzunu, qonur gözlərinin gözəlliyini xüsusi estetik zövq və incəliklə təsvir edir:

**Buynuzuyla budaqları**
**Aralayıb keçdi maral.**
**Gəzib-gəzib bu dağları**
**Dadlı otlar seçdi maral.**

Və yaxud:

**Yavaş gedirsən yolu,**
**Naxır getdi, qaldın tək.**
**Məmələrin dopdolu,**
**Tərpən, a qızıl inək!**
**Tez ol südünü gətir,**
**Nənəmiz qatıq qoyar.**
**Bişirər yağlı fətir,**
**Uşaqlar yeyib doyar**

**("Qızıl inək")**

Xanımana Əlibəylinin heyvanlar haqqında yazdığı bu cür poetik nümunələri çoxdur. Ona görə də müəyyən qisminin adlarını çəkə bilirik.

Rafiq Yusifoğlu Xanımana Əlibəyli yaradıcılığına yüksək dəyər verərək yazır: "Xanımana Əlibəylinin uşaq psixologiyasına yaxından bələdliyi, predmeti uşaq gözü ilə görmək bacarığı onun uşaq şeirlərinin təravətini, həyatiliyini artıran başlıca amillərdəndir". Bu xüsusiyyətləri şairin bir çox şeirlərində müşahidə etmək olar.

"Kuklam Almaz" şeirinin qəhrəmanı uşaqdır. Onun mənəvi aləmini, xəyallarını canlandıran yazıçı uşaqlarda fantaziya gücünün formalaşmasına vəsilə olur. Xanımana Əlibəyli şeirlərində qurduğu süjeti o qədər dolğun, canlı boyalarla təsvir edir ki, qısa şeirdə sanki böyük mətləblər olduğuna şahid oluruq. Kuklasına müraciət edən kiçik qəhrəman ayrı-ayrı kuklalaların müəyyən işlərlə məşğul olduğuna əsas götürərək onu da işə buyurur:

**Sevimli kuklam, Almaz**
**Sözlərimə qulaq as:**
**Fil çalıb pianoda**
**Öz dərsini oxuyur.**
**Ağ ayı kresloda**
**Oturub şal toxuyur.**
**Sözlərimə qulaq as.**
**Tez əlinə dəsmal al,**
**Qabları yu, süfrə sal .**

"Üç bala" şeirində qaranquşun balaları ilə birlikdə keçirdiyi zamandan bəhs edilir. Qaranquşun sanki ailə tablosunu yaradan Xanımana Əlibəyli bu mənzərənin yaratdığı, oxucuya çatdırdığı hiss, həyəcanı dolğun ifadə etməyə çalışır.

"Ayı" şeirində müəllif maraqlı üsuldan istifadə etməklə ayının tənbəlliyini, hər şeyin hazırına can atmasını tənqid edir. Qısa şeirdə almanı, armudu şəxsləndirir, meyvələrin dilindən ayını onları yeməyə səsləyir. Fikrimizcə, bu şeir yazıçı ustalığını özündə cəmləşdirir. Çünki az sözlə, yığcam süjet xətti ilə böyük məna ifadə etmək yazıçı üçün asan deyildir:

**Qış gecəsi yatıb ayı,**
**Yuxusunda gördü yayı.**
**Mağaranı eşə-eşə**
**Dedi: -Nə var, nə yox, meşə?**
**Səsləndi bir qızıl alma:**
**-Oyan, ayı, yatıb qalma!**
**Gülümsədi sarı armud:**
**Sulanmışam, gəl məni ud! .**

"Tülkü və toyuq" şeirində həmişə hiyləgərlik simvolu kimi tanıdığımız tülkünün xoruzu ələ keçirmək üçün göstərdiyi səy təsvir predmetinə çevrilir. Ancaq xoruzların müdafiəsi nəticəsində tülkünün planı baş tutmur.

Kitabın sərlövhəsi kimi seçilən "Biletsiz sərnişin" şeirinin qəhrəmanı da kiçik kəpənəkdir. Qatara təsadüfən düşən kəpənəyə uşaqlar böyük maraq göstərir. Müəllif kiçik kəpənəyə çox qayğı ilə yanaşır, uşaqlar ona "biletsiz sərnişin" adı adı verirlər. Bu şeiri oxuyarkən şairin ruhunun incə və həssad, dərin duyğularla zəngin olduğunu sezməmək mümkün deyildir.

İlk baxışdan biz düşünürük ki, yəqin bu sərnişin hər hansısa bir şəxsdir. Sonra isə onun kiçik bir kəpənək olduğunu görəndə oxucu təəccüblənir. Balaca quşa belə yüksək mövqedən yanaşmaq, ona bu qədər dəyər vermək yazıçı ustalığına bir daha əyani sübutdur.

Xanımana Əlibəyli yaradıcılığının demək olar hamısını uşaqlar üçün yazılmış əsərlərə həsr etmişdir. Bu da şairin zəngin mənəvi aləminin uşaqlar kimi saf, təmiz duyğulardan ibarət olduğunun göstəricisidir.

**GÜLNAR QƏMBƏROVA**
**filologiya üzrə fəlsəfə doktoru, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Uşaq ədəbiyyat şöbəsi**